**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



Yusif Vəzir Çəmənzəminlinin 125 illik yubileyi münasibətilə

# Xalqa həsr edilmiş həyat

***(metodiki vəsait)***

**Bakı – 2012**

Tərtib edəni: Xəlilova Xəyalə - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı

Redaktor: Fizurə Quliyeva - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

## Tərtibçidən

Bu vəsaiti Yusif Vəzir Çəmənzəminlinin 125 illiyi münasibətilə sizə təqdim edirik. Vəsaiti sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların Yusif Vəzir Çəmənzəminli haqqında olan məlumatlarını daha da artırmaqdır.

"Xalqa həsr edilmiş həyat" adlanan metodik vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Vəsaitin "Giriş" hissəsində Yusif Vəzir Çəmənzəminlinin həyat və yaradıcılığından söhbət açılır. İkinci hissədə isə kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

# Giriş

Yusif Vəzir Çəmənzəminli 1887-ci il sentyabr ayının 12-də Azərbaycanın səfalı yerlərindən biri olan Şuşa şəhərində anadan olmuşdur.

Yusif Vəzir Çəmənzəminli ilk əvvəl Şuşada "Kar Xəlifə" ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində oxumuşdur. Molla Mehdinin yanında təhsilin səmərəsiz olduğunu hiss edən Məşədi Mirbaba oğlu Yusifi Ağdama apardı və onun təhsili ilə özü məşğul olmağa başladı və ona türk və fars dillərini öyrətdi. Yusifin atası onun rusca öyrənməsini də istəyindən və Ağdamda rus məktəbi olmadığından Yusif Muradbəylidəki rus məktəbinə getməli oldu. Yusif 1896-ci ildə Şuşaya qayıtdı və imtahan verib Şuşa realnı məktəbinə daxil oldu.

Yusif Vəzir Çəmənzəminli hələ kiçik yaşlarında rəsm əsərləri çəkməklə məşğul olmuşdu. Əvvəlcə təbiət mənzərələri, sonralar isə ictimai-siyasi motivli karikaturalar çəkməyə başlamışdı. Yusifin tələbəlik illərinin sevinci uzun sürmədi. Gözlənilmədən onun böyük qardaşı Əbülhəsən xəstələndi və 1904-cü ildə vəfat etdi. Yusif Vəzirin 21 yaşlı qardaşı Əbülhəsən vaxtsız ölümü onu hədsiz dərəcədə sarsıtdı.

Yusif Vəzir Çəmənzəminli Şuşa realnı məktəbində təhsilini rus dilində aldığı üçün 1904-cü ildə həyatından şikayət tərzində yazılmış "Jaloba" adlı ilk şeirini rusca yazmışdı və o, rusca yazdığı bir neçə şeirini Şuşa realnı məktəbindəki rus dili müəllimi Klemiyə göstərməyə başladı. Müəllim şeriləri gözdən keçirib ona A.Çexovu oxumağı məsləhət gördü. A.Çexovun sirin və duzlu hekayələri Yusif Vəzirin çox xoşuna gəldi. Yusif realnı məktəbində oxuyan zaman əmisi oğlu və dostu Mirhəsən Vəzirovla birlikdə rus dilində "Fokusnik" adlı, əl ilə yazılmış yumoristik və karikaturalı aylıq jurnal çıxarırdı. Bu jurnalda verilən yazılar həcmcə kiçik olsa da, məzmunca diqqəti cəlb edirdi.

Atasının vəfatından sonra ailə, həyat təcrübəsi olmayan 19 yaşlı Yusifin himayəsində qaldı. Yusif ilk əvvəl Ağdamdakı əttar dükanındakı malları və dükanın özünü satmaq üçün Ağdama getmiş və bir neçə gün orada qaldıqdan sonra xəstələnib Muradbəylidə yaşayan Telli bibisigilə getdi. İki ay yatalaq xəstəliyindən yatıb, ağır böhranlar keçirirdi. Sonra Yusifin bibisi onun sağalacağına olan ümidini itirib Şuşaya göndərmiş, xəstəlikdən zəif düşmüş Yusifin üç ay yataqdan qalxa bilməməsi ailəni böyük çətinliklər qarşısına qoydu. Ailənin ağır vəziyyətində Yusif hələ uşaq ikən Cənubi Azərbaycanın "Çəmənzəmin" adlı kəndinə qaçmalı oldu. Yusifgilə Həsənxan, Nifti və Fərəc qardaşlarından basqa heç bir qohumları kömək etmədi. Yusifin atası Məşədi Mirbabayev vaxtı ikən yurdları olmayan bu qardaşlara öz həyətində sığınacaq verib himayəsinə almışdı.

Yusif sağaldıqdan sonra anasına demişdi ki, əgər mən gələcəkdə adlı-sanlı adam olsam, mütləq Cənubi Azərbaycandan gəlmiş sədaqətli qonşularımızın kəndlərinin adını özümə təxəllüs qəbul edəcəyəm. Yusif Vəzir necə deyirdi, elə də etdi. Yusif Vəzirin "Çəmənzəminli" təxəllüsünü qəbul etməsi onun həmin ailəyə bəslədiyi hörmət və məhəbbətdən irəli gəlirdi.

Yusif Vəzir Çəmənzəminli böyük səylə oxumaqla bərabər ictimai işlərlə də məşğul olurdu. Yusif Vəzir xalqın məişətini, onun adət və ənənələrini, həyat tərzini

bilərək 1907-ci ildə "Şahqulunun xeyir işi" adlı ilk hekayəsini yazmışdı. Bu hekayə ilk dəfə 1911-ci ildə "Səda" qəzetində çap olundu. Şuşadakı milli ədavət Vəzirovlar ailəsini də ata-baba yurdundan didərgin düşməyə məcbur etdi. Onlar Aşqabada köçməli oldular.

Yusif Vəzir 1909-cu ildə Bakı realnı məktəbini bitirib, təhsilini davam etdirmək üçün Peterburqa gedib sənədlərini Mülki Mühəndislər İnstitutuna veridi. Lakin riyaziyyata qələbə çalmayacağını hiss edib sənədlərini geri almalı oldu. Orada olarkən yazıçı məşhur "Cənnətin qəbzi" hekayəsini yazmışdır.

Yusif Vəzir 1910-cu ildə Kiyevə gedib, Müqəddəs Vladimir adına Imperator Universitetinin hüquq fakültəsinə daxil olmuşdu. Yusif Vəzirin Kiyevdəki 5 illik tələbəlik dövründə də vətənilə heç bir zaman əlaqəni kəsmirdi. Yusif Vəzir Çəməzəminli Bakıda nəşr olunan qəzetləri və jurnalları müntəzəm olaraq alırdı və Azərbaycanda baş verən hadisələrlə yaxından tanış olurdu. Eyni zamanda öz yazılarını da Bakıda çıxan qəzetlərdə çap etdirirdi. Yusif Vəziri düşündürən əsas məsələlərdən biri də Azərbaycan dilində kitabların nəşri və yayılması olmuşdu. O, bu məqsədlə Kiyevin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrdən ibarət xüsusi nəşriyyat heyəti təşkil etmişdi.

Yusif Vəzirin xalq nağıllarından götürülmüş uşaqlar üçün yazdığı məşhur "Məlik Məmməd" nağılı 1910-cu ildə Kiyevdə yazılmış və 1911-ci ildə kitabça şəklində nəşr olunmuşdur.

Yusif Vəzir Çəmənzəminli 1912-ci ildə "Yeddi hekayə", 1913-cü ildə isə "Həyat səhifələri" adlı kitablarını Kiyevdə çap etdirmişdir. Onların hər nüsxəsini Qori müəllimlər seminariyasının müəllimi, görkəmli ədəbiyyatşünas Firudun bəy Köçərliyə göndərdi. Firudun bəy kitabçaları aldıqdan sonra Qoridən Kiyevə göndərdiyi məktublarla Yusif Vəzir yaradıcılığına, onun mədəniyyət sahəsində xidmətlərinə yüksək qiymətləndirmişdi.

Beləliklə, Yusif Vəzir Çəmənzəminli Kiyevdəki 5 illik tələbəlik həyatı ədəbi və elmi sahədə çox əlverişli olmuşdu. Bu zaman o, dini məsələ, qadın məsələləri və uşaq tərbiyəsi ilə son dərəcə maraqlanırdı. Nəticədə "Arvadlarımızın halı", "Qanlı göz yaşları", "Ana və analıq" kitabları meydana çıxdı. 1915-ci ildə birinci dünya müharibəsinin gedişi ilə əlaqədar olaraq alman hücumundan çəkinən çar höküməti Kiyev universitetini müvəqqəti olaraq Saratova köçürdüyü üçün Yusif Vəzir Çəmənzəminli universiteti 1915-ci ildə Saratovda bitirdi. O, universiteti bitirdikdən sonra Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olundu.

Yusif Vəzir Çəmənzəminli Azərbaycan Demokratik Cumhuriyyətinin Nazirlər Şurasının sədri Nəsib bəy Usubbəyovun təklifi ilə 1919-cu ildə yeni yaranmış Respublikanın səfiri kimi İstanbula göndərildi. Yusif Vəzir Çəmənzəminli İstanbulda diplomatik işlə məşğul olmaqla yanaşı, öz ədəbi fəaliyyətini də davam etdirirdi. Belə ki, Azərbaycanı və Azərbaycan ədəbiyyatını türk aləminə tanıtmaq üçün elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi-coğrafi və iqtisadi Azərbaycan" adlı kitablarını yazıb 1921-ci ildə onları İstanbulda çap etdirmişdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Yusif Vəzir Çəmənzəminli tutduğu vəzifəsinin artıq bitmiş olduğunu elan edib, Parisdə siyasi elmlər institutunun diplomatika fakültəsində təhsil alan kiçik qardaşı Mirinin yanına getdi. Ancaq qardaşının vaxtsız vəfatından sonra Yusif Vəzir Çəmənzəminli vətəni Azərbaycana qayıtdı. Bir ildən sonra Ümumittifaq İcraiyyə Komitəsinin 18 yanvar 1926-ci il tarixli qərarına əsasən Yusif Vəzir sovet vətəndaşlığına daxil oldu. Yusif Vəzir Çəmənzəminli 1926-cı ilin aprel ayında həmişəlik olaraq mühacirətdən vətənə qayıdı.

Yusif Vəzir Çəmənzəminli bir çox hekayələrini "Maarif və mədəniyyət" jurnalında və başqa mətbuat orqanlarında çap etdirirdi. Sonralar isə "Qızlar bulağı", "Studentlər", "1917-ci il" adlı romanlarını çap etdirdi.

Yusif Vəzir Çəmənzəminli L.Tolstoyun, I.Turgenevin, A.Neverovun, N.Qoqolun, B.Lavrenevin, L.Seyfulinanın, V.Hüqonun və s. bir neçə əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdi. O, kino-ssenarilərin tərcüməsi işində də fəal iştirak etmişdi. Azərbaycan dilində ilk səsli film olan məşhur "Çapayev" filminin ssenarisini də Azərbaycan dilinə 1936-cı ildə Yusif Vəzir Çəmənzəminli tərcümə etmişdi. Yusif Vəzir Çəmənzəminli 1937-ci ilin aprel ayında tamamladığı "İki od arasında" adlı tarixi romanı işdən çıxarıldığı üçün çap etdirə bilməmişdi. Öz sağlığında nəşr etdirmək qisməti olmayan Yusif Vəzir Çəmənzəminlinin bu tarixi romanı ilk dəfə 1960-cı ildə "Azərbaycan" jurnalında müəyyən ixtisarla "Qan içində" adı ilə çapdan çıxmışdı.

1937-38-ci illərdə represiyaya məruz qalan Azərbaycanın bir qrup elm və mədəniyyət xadimlərindən B.Çobanzadə, N.Şahsuvarov, H.Zeynallı, H.Nəzərli və başqalarının verdikləri ifadələr əsasında 1940-cı il yanvar ayının 25-də Yusif Vəzir Çəmənzəminli Urgəncdə həbs edilib Bakıya gətirildi. O, altı aya yaxın Keşlə həbs düşərgəsində saxlanıldıqdan sonra 1940-cı ilin iyul ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsinə göndərdilər.

Yusif Vəzir Çəmənzəminli 1943-cü il yanvar ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansıyasındakı həbs düşərgəsində vəfat etdi. Səhəri gün – 1943-cü il yanvarın 4-də Yusif Vəzir Çəmənzəminli Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn olundu. 1956-cı ildə Yusif Vəzirə bəraət verildi.

## Yubiley tədbirləri

Bu il Azərbaycan ədəbiyyatının öndər yazıçılarından biri olan Yusif Vəzir Çəmənzəminlinin anadan olmasının 125 ili tamam olur. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgi təşkili zamanı aşağıdakı sitatlardan istifadə etmək olar.

**1.** Gənc, həyat elə böyük bir qüvvədir ki, mətin qayanı belə yıxar. Gənc olduğumu idrak edən dəqiqələr özümü kainatın hakimi zənn edirəm. İnsan özünün baqi olmadığına inanarmı? Gündə yüz minlərlə ölülər belə görsəm, öləcəyimə qane ola bilmirəm.

**2.** Mən həyatımın sonuna qədər uğursuz olacağına, cocuqluğumun ilk dövründən inanıb, qəlbimdə qəm kitabı daşıdım.

**Yusif Vəzir Çəmənzəminli**

**3.** Yusif Vəzir Çəmənzəminli bu gün də, sabah da bizdən sonra gələcək neçə-neçə nəsillərin sevimli yazıçısı olaraq qalacaqdır.

**4.** Özündən sonra çox zəngin ədəbi irs qoyub getmiş olan Yusif Vəzir Çəmənzəminlinin əsərləri tədqiq və təbliğə laiq bir xəzinədir.

**Məryəm Axundova**

**4**. Yusif Vəzir Çəmənzəminlinin Azərbaycan folkloruna, ədəbiyyat tarixinə dair dərin elmi fikirləri və nəzəri tədqiqatları bu gün də böyük əhəmiyyətə malikdir.

**Kamran Məmmədov**

Sərgi zamanı yazıçının aşağıdakı fotolarını və kitablarının üz qabıqlarının rəsmlərini də sərgiləmək olar.
















Tədbirlər arasında sual-cavab gecəsi mühüm yer tutur. Sual-cavab gecəsini iki hissədən ibarət təşkil etmək olar. İlk hissədə kitabxanaçı oxuculara Yusif Vəzir Çəmənəminlinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verir. Tədbirin ikinci hissəsində isə oxuculara yazıçıyla bağlı suallar təqdim olunur.

**Kitabxanaçı:** Dostlar, ümid edirəm ki, sizi Yusif Vəzir Çəmənzəminli haqqında kifayət qədər məlumatlandırmağa nail olduq. İndi isə sizin yazıçı haqqında olan biliklərinizi və öyrəndillərinizi yoxlamaq məqsədilə sizə suallar təqdim edirik:

**1.** Yusif Vəzir Çəmənzəminli neçənci ildə anadan olmuşdur?

**Cavab:** 1887-ci il sentyabr ayının 12-də

**2.** Yusif Vəzir Çəmənzəminli ilk təhsilini harda almışdır?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli ilk təhsilini Şuşada “Kar Xəlifə” ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində almışdır.

**3.** Yusif  Vəzir Çəmənzəminlinin ilk şeiri necə adlanır və hansı dildə yazılmışdır?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli Şuşa realnı məktəbində təhsilini rus dilində aldığı üçün 1904-cü ildə həyatından şikayət tərzində yazılmış “Jaloba” adlı ilk şeirini rusca yazmışdı.

**4.** Yusif Vəzir Çəmənzəminlinin uşaq ikən ən çox sevdiyi məşğuliyyət hansıdır?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli hələ kiçik yaşlarında rəsm əsərləri çəkməklə məşğul olmuşdu. Əvvəlcə təbiət mənzərələri, sonralar isə ictimai-siyasi motivli karikaturalar çəkməyə başlamışdı.

**5.** Yusif Vəzir Çəmənzəminli “Yeddi hekayə”, “Həyat səhifələri” adlı kitablarını neçənci ildə və harada nəşr etdirmişdi?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli 1912-ci ildə “Yeddi hekayə”, 1913-cü ildə isə “Həyat səhifələri” adlı kitablarını Kiyevdə çap etdirmişdi.

**6.** Yusif Vəzir Çəmənzəminli Kiyevdə nəşr olunmuş “Yeddi hekayə”, “Həyat səhifələri” adlı kitablarını kimə göndərmişdi?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli həmin kitabların hər birinin nüsxəsini Qori müəllimlər seminariyasının müəllimi, görkəmli ədəbiyyatşünas Firudun bəy Köçərliyə göndərmişdi.

**7.** Yusif Vəzir “Çəmənzəminli” təxəllüsünü nə səbəbə özünə təxəllüs götürmüşdü?

**Cavab:** Yusif Vəzirin “Çəmənzəminli” təxəllüsünü qəbul etməsi onlara sığınacaq verən ailəyə bəslədiyi hörmət və məhəbbətdən irəli gəlir.

**8.** Yusif Vəzir Çəmənzəminli hansı xarici yazıçıların əsərlərini tərcümə etmişdir?

**Cavab:** O, L.Tolstoyun, İ.Turgenevin, A.Neverovun, N.Qoqolun, B.Lavrenevin, L.Seyfulinanın, V.Hüqonun və s. müəlliflərin əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdi

**9.** Yusif Vəzir Çəmənzəminli Azərbaycan Demokratik Respublikanın dövründə, 1919-cu ildə hansı ölkədə Azərbaycanın ilk səfiri vəzifəsində çalşmışdır?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli 1919-cu ildə yeni yaranmış Azərbaycan Demokratik Cümhuriyyətinin Türkiyədə ilk səfiri olub.

**10.** Yusif Vəzir Çəmənzəminli neçənci ildə və harda vəfat etmişdir?

**Cavab:** Yusif Vəzir Çəmənzəminli 1943-cü il yanvar ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində vəfat etmişdi.

Tanınmış roman və hekayə ustası kimi tanınan Yusif Vəzir Çəmənzəminlinin bir neçə kitabı işıq üzü görmüşdür. Həmin kitabların icmalının keçirilməsi də oxucularda maraq doğurar. Belə ki, ədəbiyyatımızın tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, hekayə ustası, dramaturq, publisist, alim, folklor tədqiqatçısı, maraqlı xatirələr müəllifi, pedaqoq, ictimai xadim və yüksək ziyalı anlayışını ömrü boyu şərəflə daşıyan Yusif Vəzir Çəmənzəminli zəngin və mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündüklərini parlaq bədii boyalarla əks etdirmiş və mədəniyyətimiz tarixində qiymətli bir irs qoyub getmişdir.

Yazıçının yaradıcılığından ibarət “Əsərləri” kitabı 2005-ci ildə Bakıda işıq üzü görmüşdür. Üç cilddən ibarət olan bu kitab Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Kitabın birinci cildində Yusif Vəzir Çəmənzəminlinin hekayələri toplanmışdır. Belə ki, hekayə janrı yazıçının yaradıcılığında başlıca yer tuturdu. Bu janr ilə ədib yaradıcılığı boyu ardıcıl surətdə məşğul olmuşdur. Həmin janrda qələmə aldığı əsərlərdə yazıçının bütün sənətkarlıq xüsusiyyətlərini aydın görmək olar. Kitabın bu cildində "Şahqulunun xeyir işi", "Kənddən şəhərə göndərilən bir kağız", "Sərhəd məsələsi", "Toy", "Cavan", "Polis paltosu", "Xanın qəzəbi", "Yuxu", "Əziz", "Dəli", "Divanə", "Zeynal bəy", "Ağsaqqal", "Hərrac", "Bir qəpik", "Gələcək şəhər" və s. adlı hekayələr yer almışdır.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında hekayə janrının görkəmli yaradıcılarından biri kimi tanınmış Yusif Vəzir Çəmənzəminli eyni zamanda iri həcmli əsərlərin də müəllifidir. "Əsərləri" kitabının oxuculara təqdim olunan II cildindəki "Studentlər", "Qızlar bulağı", "İki od arasında" əsərləri ilə, Yusif Vəzir Çəmənzəminli ədəbiyyatımız tarixində bir romançı kimi də xüsusi yer tutur.

Kiyev təhsil illərinin müşahidələrindən doğan "Studentlər" romanı Çəmənzəminlinin ictimai fikir meydanında sözlədiyi öz sözü, öz mülahizələri idi.

Yazıçının "Qızlar bulağı" əsəri ədəbiyyatımızda ilk tarixi-fəlsəfi romandır. Doğma xalqının taleyi və tarixi Yusif Vəziri ömrü boyu düşündürmüşdür. O bu xalqın mənşəyini, uzaq zamanların qaranlığında itən köklərini arayıb axtarmış və romanda özünəməxsus baxımdan əks etdirmişdir.

Vətənin taleyi haqqında mühüm tarixi keçidlərdə xalqımızın qarşısına çıxan çətin məsələrlər haqqında dərin düşüncələr, Y.V.Çəmənzəminli XVIII əsrin böyük sənətkarı və dövlət xadimi Molla Pənah Vaqifin adıyla bağlı olan "İki od arasında" romanında yüksək bədii sənətkarlıqla, həqiqətə güzəştsiz sədaqətlə əksini tapmış, və roman ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur.

Y.V.Çəmənzəminli əsərlərində xalq nağıllarının ruhunu, Azərbaycan dilinin sehrini qoruyub saxlamış, bu dildə, bu ədəbiyyata ömrünün son gününə qədər namusla xidmət etmiş, Y.V.Çəmənzəminli Azərbaycan ictimai fikrinə təkcə zəngin bədii yaradıcılığı ilə daxil olmamışdır. Onun milli folklora, ədəbiyyat tarixinə dair dərin tədqiqləri bu gün də əhəmiyyətini saxlayır.

"Əsərləri" kitabının oxuculara təqdim olunan III cildində yazıçının ədəbi-tənqidi və publisist yazıları, oçerk və xatirələri ilə yanaşı, "Bir cavanın dəftəri", "Həzrəti-Şəhriyar", "Altunsaç" kimi bədii nəsrləri, dram və ssenariləri, "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi, iqtisadi Azərbaycan" və s. əsərləri toplanmışdır.

Cildə salınmış müxtəlif məzmunlu və rəngarəng əsərlər Yusif Vəzir Çəmənzəminlinin hekayələri, felyetonları ilə sıx əlaqəlidir, onlardakı fikirlərin publisist tərzdə ifadəsidir. Dilimizi, ədəbiyyatımızı, zehnimizi dünyanın mədəni sərvətləriylə zənginləşdirmək istəyindən yaranmış həmin məqalələr ədibin romanlarını da tamamlayır, onların ideya və bədii dəyərinin daha yaxşı işıqlandırılmasına kömək edir.

Oxucularımızın sevimli yazıçımız haqqında olan fikirlərini öyrənmək məqsədilə anket sorğularının keçirilməsi məqsədə uyğundur. Bunu nəzərə alaraq hazırladığımız sorğunu sizə təqdim edirik.

**1.** Yusif Vəzir Çəmənzəminlini tanıyırsınızmı?

☺ Bəli
☺ Xeyir

**2.** Yazıçı neçənci ildə anadan olmuşdur?
☺ ________________________________

**3.** Yusif Vəzir Çəmənzəminlinin harada anadan olduğunu bilirsinizmi?
☺ Bəli ____________
☺ Xeyir

**4.** Yusif Vəzir Çəmənzəminlinin əsərlərini oxumusunuzmu?
☺ Bəli
☺ Xeyir

**5.** Yazıçının ən çox sevdiyiniz hekayəsinin adını qeyd edin.
☺ ________________________________

**6.** Yazıçının ilk hekayəsinin necə adlandığını bilirsinizmi? Əgər bilirsinizsə adını qeyd edin.
☺ Bəli ____________________________
☺ Xeyir

**7.** Yusif Vəzir Çəmənzəminlinin rus dilində yazmış olduğu ilk şeirinin adını bilirsinizmi?
☺ Bəli ______________
☺ Xeyir

**8.** Yusif Vəzir Çəmənzəminlinin hansı əsərlərini oxumusunuz?
☺ ________________________

**9.** Yusif Vəzir Çəmənzəminlinin ən çox sevdiyiniz əsərinin adını qeyd edin
☺ ________________________

**10.** Yusif Vəzir Çəmənzəminlinin vəfat etdiyi ili qeyd edin.
☺ ________________________

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi Yusif Vəzir Çəmənzəminli bir-birindən maraqlı hekayələrin müəllifidir. Müsabiqə zamanı həmin hekayələrə uşaqlar tərəfindən karikatura çəkilməsi tapşırılır. Şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Yusif Vəzir Çəmənzəminlinin əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri hekayəyə karikatura çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır.

Rəsm müsabiqələri ilə yanaşı başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, uşaqların ifasında Y.V.Çəmənzəminlinin hekayələri səhnələşdirilərək

münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Əsəri ən gözəl səhnələşdirilən uşaqlardan ibarət komanda mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Yusif Vəzir Çəmənzəminli yaradıcılığı müasir gəncliyin gözü ilə" konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Y.V.Çəmənzəminli yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

**1.** Giriş hissə (Y.V.Çəmənzəminlinin həyat və yaradıcılığı haqqında məruzə)

**2.** Y.V.Çəmənzəminlinin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.

**3.**Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Y.V.Çəmənzəminlinin müxtəlif əsərləri ətrafında məruzələri.

**4.** Konfransın yekunu.

Yubiley tədbirləri arasında xatirə gecəsi özünəməxsus yer tutur.Yusif Vəzir Çəmənzəminliyə həsr olunmuş xatirə gecəsinin ssenarisini sizə təqdim edirik.

*(Tədbir kitabxana rəhbərliyi tərəfindən açıq elan olunur. Xatirə gecəsinə Y.V.Çəmənzəminli yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət olunur. )*

**I aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar.

**II aparıcı:** Bildiyimiz kimi bu il sənət və ədəbiyyat aləmində həm kiçik, həm də tarixi romanlar müəllifi kimi tanınan yazıçılardan biri olan Yusif Vəzir Çəmənzəminlinin 125 illik yubileyi qeyd olunur. Bu münasibətlə kitabxanamızda təşkil olunmuş xatirə gecəsində hamınızı xoş gördük.

**I aparıcı:** Çox əsrlik Azərbaycan ədəbiyyatı tarixində Yusif Vəzir Çəmənzəminlinin adı və yaradıcılığı xüsusi yer tutur. Həddən artıq bilikli geniş ədəbi qabiliyyətə malik vətənpərvər Yusif Vəzir Çəmənzəminli doğma xalqın milli-mənəvi sərvətinin inkişafına ömrünü səxavətlə sərf etmiş, ona öz yazışı, publisist qələmi ilə xidmət göstərmişdir. Görkəmli söz ustası geniş planlı əsərlərində millətinin həyatını, eyni zamanda doğma yurdun mənzərələrini, tarixini əks etdirmişdir. Və belə bir sənətkar xalq tərəfindən ürəkdən sevilir.

**II aparıcı:** Bildiyimiz kimi Y.V.Çəmənzəminli ədəbiyyatımızda həm də hekayə ustası kimi tanınır. Yazıçının "Cənnətin qəbzi", "Toy", "Borclu", "Xanın qəzəbi", "İki hekayə","Divanə", "Ağsaqqal", "Qanlı göz yaşları" adlı hekayələri real həyat və mühitdən alınmış hadisə və surətlərlə zəngindir. Elə bu səbəbdən yazıçının əsərləri oxucular tərəfindən sevilir.

**I aparıcı:** Aktual problematikasına, orijinal yazı tərzinə, səmimiliyinə və yetkinliyinə görə Çəmənzəminlinin hekayələri kimi romanları da N.Nərimanov, F.Köçərli, H.Vəzirov, C.Hacıbəyli tərəfindən yüksək qiymətləndirilirdi. Yazıçının romanları oxucularımızın ən çox müraciət etdiyi ədəbiyyatların siyahısına daxildir.

**II aparıcı**: Qeyd etdiyimiz kimi Y.V.Çəmənzəminli həm də roman ustası kimi tanınmışdır. Ədib 1914-cü ildə "Bir cavanın dəftəri", "Günah" adlı ilk romanlarını yazmağa başlamışdır. Sonralar Y.V.Çəmənzəminli "Günah"ı "Studentlər" adı ilə yenidən nəşr etdirmişdir. Y.V.Çəmənzəminlinin ən maraqlı əsərlərindən biri olan "Qızlar bulağı"nın mövzusu uzaq keçmişimizdən götürülmüşdür. Əsər ədibin tariximiz haqqında hələ yaradıcılığının ilk dövrlərindən başladığı axtarışlarının ciddi bədii nəticələrindən biridir.

**II aparıcı:** Bizim məktəbli dostlarımız da məhz Y.V.Çəmənzəminli yaradıcılığına olan sevgilərini sübut etmək istəyirlər. Gəlin onları səhnəyə dəvət edək və yazıçının səhnələşdirilmiş hekayələrindən birini oxucularımızın ifasında izləyək.

*(Oxucular Y.V.Çəmənzəminlinin ən çox sevilən əsərindən bir parçanı ifa edirlər. Seçim sərbəstdir. Hər bir kitabxana yazıçının istənilən hekayəsini və ya romanından bir parçanı səhnələşdirə bilər.)*

**Oxucu:** Bir zamanlar uzaq bir ölkədə Yaqub və onun arvadı yaşarmış. Bir gün Yaqubun işsizliyindən cana gələn arvadı və onu danlamağa başlayır.

**Arvad:** Biz ikimiz də ac ola-ola sən niyə işsiz oturmusan və ağlayırsan?

**Oxucu:** Yaqub cavab verir:

**Yaqub:** Mən nə işləyəcəyəm? Mənə iş vermirlər.

**Oxucu:** Arvadı ona məsləhət verir:

**Arvad:** Get meydana. İndi orada bazar var. Şəhərə gələn qonaqların falına bax.

**Oxucu:** Kişi gedib meydanın bir küncündə oturdu və gözlərini aşağı dikdi. Maraqlananlar soruşanda ki, o kimdir və niyə başına balqabaq qoyub, o heç nə cavab vermədi, heç gözlərini də qaldırmadı. Bir müddətdən sonra belə bir şayiə yayıldı ki, qüdrətli bir müdrik meydanda tək oturub. Bu xəbəri eşitcək bir tacir onun yanına gəldi və dedi:

**Tacir:** Qüdrətli Şeyx, Mən öz eşşəyimi itirmişəm. Onun yerini mənə desən, səni mükafatlandıracağam".

**Yaqub:** Get qəbristanlığa, ey qəmli insan!

**Oxucu:** İş elə gətirir ki, təsadüfən eşşək qəbristanlıqda olur və tacir onu tapır. Tacir sevinir və qayıdıb Yaquba beş gümüş pul verir. Yaqub sevinə-sevinə evə gedib, bu barədə arvadına danışır. Onlar bir müddət belə xoşbəxt yaşayırlar. Sonra yenə arvadı Yaqubu meydana, öz köhnə yerinə göndərir. Elə bu ərəfələrdə

sultanın qiymətli daş-qaşlarla dolu sandığı itir. Oğrular şəhərdən qaçmaq üçün məqam axtarırlar. Yaqubun şöhrəti sultanın da qulağına çatmışdı. O, Yaqubdan soruşur:

**Sultan:** Mənim ləl-cəvahiratla dolu olan sandığım hardadır?

**Yaqub:** Ey kasıb və bədbəxtlərin himayədarı, mən bilmirəm.

**Sultan:** Əgər yeddi günə mənim sandığımı tapmasan, mən sənin dərini soyduracağam.

**Oxucu:** Əli hər şeydən üzülmüş Yaqub, başına kül yağdıra-yağdıra qapının ağzında oturub ağlamağa başlayır. Yaqub yatır. Gün belə keçir. Oğrular artıq onun məharəti haqqında eşitmişdilər. Ona görə də öz içərilərindən birini seçib, ona Yaqubu izləməyi tapşırırlar. Oğru eşidir ki, o gələn kimi Yaqub deyir:

**Yaqub:** Bu birinci.

**Oxucu:** Oğru tez gedib bu hadisəni oğrulara danışır ki, Yaqub onun gəldiyini qabaqcadan bilib. Ona inanmırlar. Sonra ikinci oğrunu göndərirlər. O da Yaquba qulaq asanda eşidir:

**Yaqub:** Bu da ikinci.

**Oxucu:** İkinci oğru da tez gedib oğrulara deyir:

**II Oğru:** Yaqub müqəddəs adamdır, bizi görür. Biz gərək ya qızılları qaytaraq, ya da şəhərdən qaçaq. Yoxsa bizi ölüm gözləyir.

**Oxucu:** Üçüncü oğrunu da göndərirlər. O da həmin sözləri eşidir: "Bu da üçüncü". Oğru qışqırıb evə gəlir və qızılı qaytarmaq üçün o biri oğrulara yalvarır. Oğrular qızılları Yaquba qaytarırlar. Sonra sultan Yaqubu saraya gətizdirir.

**Sultan:** Ey müqəddəs insan! Nə istəsən sənə verəcəyəm.

**Yaqub:** Mənə eşşək ver.

**Oxucu:** Sultan gülür və Yaqubu azad edir.

**I aparıcı:** Dostlar indi isə gəlin sizinlə kiçik bir sual-cavab oyunu keçirək. Aranızda Y.V.Çəmənzəminli haqqında olan biliyinə güvənən oxucularımız önə çıxsın.

*(5 nəfər oxucu aparıcılara yaxınlaşır.)*

**II aparıcı**: Gördüyünüz kimi bu stolun üstündə sizə Y.V.Çəmənzəminlinin 5 ədəd kitabı qoyulmuşdur. Hər biriniz həmin kitabları götürün və ilk səhifəsinin arasında gizlədilmiş vərəqdəki sualı yüksəkdən oxuyun və əgər düzgün cavabı bilirsinizsə səsləndirin.

*(Oxucular eynilə aparıcının dediyini təkrarlayırlar.)*

**I oxucu**: Y.V.Çəmənzəminli hansı illər arasında yaşayıb yaratmışdır? *(Cavab: 1887-1943)*

**II oxucu:** Yazıçı Yusif Vəzirin təxəllüsü nədir? *(Cavab: Çəmənzəminli)*

**III oxucu:** Y.V.Çəmənzəminlinin ilk hekayəsi hansıdır*? (Cavab: "Şahqulunun xeyir işi")*

**IV oxucu:** Y.V.Çəmənzəminlinin tarixi mövzuda yazılmış romanı necə adlanır? *(Cavab: "İki od arasında")*

**V oxucu:** Y.V.Çəmənzəminlinin hansı mətbuatların səhifələrində öz

əsərlərini nəşr etmişdir*?* *(Cavab: "Molla Nəsrəddin", "Svobodny soyuz", "Fokusnik" və s.)*

*(Tədbir zamanı qonaqlara da söz verilir. Onlar Y.V.Çəmənzəminli haqqında öz fikirlərini bildirirlər.)*

I aparıcı: Beləliklə, tədbirimizin sonuna gəldik. Gələn görüşlərədək.

*(Sonda isə M.Maqomayevin ifasında "Azərbaycan"mahnısı səsləndirilir. )*

**SON**

## Ədəbiyyat siyahısı

**Kitablar:**


**1**. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. I cild B.: Avrasiya Press, 2005.- 360 s

**2.** Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild B.: Avrasiya Press, 2005.- 664 s.

**3.** Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. I cild B.: Avrasiya Press, 2005.- 360 s.


**İnternetdə:**


1. google.az
2. W ikipediya.org